**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 261/2** **14 aprel 2015-ci il**

**Auditorlar Palatasının 2014-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair illik hesabat barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər və Palata Şurasının 2015-ci il üzrə iş planının - "Palatanın 2014-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair illik hesabat" 9.4 və 38-ci bəndlərinə müvafiq olaraq Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış hesabatı və həmin hesabatın auditinin aparılması haqqında "HLB Azərbaycan" MMC-nin direktoru - auditor İ.Bayramovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış "Auditorlar Palatasının 2014-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair" illik hesabat və "HLB Azərbaycan" MMC-nin direktoru - auditor İ.Bayramovun aparılmış auditə dair hesabatı nəzərə alınsın (əlavə olunur).
2. Palata sədrinin müşaviri F.Qarayevə və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, həmin hesabatın azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini və ingilis dili variantının IFAC-a göndərilməsini təmin etsinlər.
3. Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palatanın təsərrüfat fəaliyyətində lüzumsuz xərclərin aradan qaldırılması və üzvlük haqqı üzrə debitor borclarının azaldılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirsin.
4. Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) və Auditorlar Palatasının Şurası yanında Beynəlxalq əlaqələr üzrə komitəyə (L.Bayramova) tapşırılsın ki, Auditorlar Palatasının maliyyə mənbələrindən biri olan qrant və ianələrdən daxilolmaların artırılması məqsədilə donor təşkilatlarla işin düzgün təşkil edilməsini və gücləndirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**